## Mükafatlandırma sisteminin prinsipləri

2.1. Bankın mükafatlandırılma sistemi aşağıdakı prinsiplər əsasında qurulub:

- **Adekvatlıq** - qanunvericiliyə, qabaqcıl beynəlxalq praktikaya və Bankın strategiyasına adekvat olması;
- **Ədalətlilik** - dəqiq ölçülmüş meyarlar əsasında obyektiv qiymətləndirmə ilə işçinin əməyinin ədalətli ödənişi, ödənişlərinin müəyyən edilməsində hər hansı bir diskriminasiyaya yol verilməməsi;
- **Balanslaşma** - bütün növ ödənişlər, bonus və imtiyazların əsaslandırılmış və nəticəyə əsaslanan ödəniş balansı yaratmağa, həm fərdi, həm də kollektiv əməyi stimullaşdırmağa yönəlməsi;
- **Səmərəlilik** - mükafatlandırmağa yönəldilən xərclərin Bank üçün adekvat səmərə gətirməsi;
- **Davamlılıq** - işçinin motivasiyasının davamlı olması;
- **Uyğunluq** - mükafatlandırma sisteminin əmək bazarında əməyin ödənişi səviyyəsinə uyğunluğu;
- **Şəffaflıq** - mükafatlandırma siyasəti ilə bağlı məlumatların həm işçilərə, həm də ictimaiyyətə açıqlanması;
- **Qəbul olunma** - mükafatlandırma siyasətinin işçi üçün başa düşülən və qəbul olunan olması.